**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

**№ 187 (1555) 11 oktyabr 2017-ci il**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# "Eşq və şərab"

**Yolum mötəbər təşkilatlardan birinə düşmüşdü. Həmin o təşkilatda diqqətimi yeni nəşrlər çəkdi. Marağımı nəzərə alan "ev" sahibləri kitablara toxunmağıma razılıq verdilər. Mən də bu fürsətdən istifadə edib bir neçə kitabı gözdən keçirdim. Düşünməyin ki, burda mən nəyisə şişirtmək və yaxud sözün başqa bir çalarından istifadə edib indiki iqtisadi durumu qılınclamaq istəyirəm. Xeyr, sadəcə, bir gerçək var: o da həqiqi, dəyərli kitabları əldə etmək istəyənlərin maddi durumunun qənaətbəxş olmamasıdı. Yəni kitab oxumaq, kitab əldə etmək istəyən həmin o durum üzündən sıxıntı yaşayır. Durumu, sıxıntısı olmayanlar isə kitabın yanından ötüb keçir... Nə isə...**

Bəli, həmin kitablar arasında diqqətimi "Eşq və şərab" çəkdi. Doğrusunu deyim ki, kitabın üz qabığı bir qəribə nostalji duyğular oyadırdı məndə. Elə bilirdim ki, hansısa qədim bir kitabı, qədim bir əlyazmanı əlimə götürmüşəm.



Kitabın naşiri Umud Rəhimoğlu kitabın tərtibatına xüsusi önəm verib. Yəni kitabın içi ilə çölü, bir az da açıq desəm, söz yükü ilə görüntü yükü bir oxucu kimi məndə həm bütün mənalarda çəkidə ağır və bütün mənalarda da görünüşündə sanballı təəssürat yaratdı. Dərhal müəllifin adını oxudum:

- Şaiq Vəli...

Hə, artıq hər şey mənə bəlli oldu. Bildimi ki, Umud Rəhimoğlu və kitabın redaktoru İbrahim İlyaslı bu müqəddəs işi görəndə nələri nəzərə alıb, nələrə söykənib və nələri qabardıblar.

**Mən "mən" olmaq istəmirdim,**
**Açıb-solmaq istəmirdim,**
**Bir də gəlmək istəmirdim,**
**Bir ulu eşq ilə gəldim!**

Bu misralar ən daşürəkli, ən duyğusuz oxucunun da mütləq yaxasından tutub silkələyəcək və mütləq onu məcbur edəcək ki, söz dünyasına, bu poeziya aləminə baş vursun, oxusun, kövrəlsin, düşünsün. Və görsün ki, bu dünyada bir Şaiq Vəli olubdu. Həmin o Şaiq Vəli bu dünyaya gəlmək istəməyib. Amma onu bu dünyaya gəlmək istəməyən bir ilahi eşq olub. Və o da həmin o ilahi eşqin iradəsinə tabe olaraq sözündən çıxmayıb, başını aşağı salıb gəlib bu dünyaya. Və gəlib görüb ki:

**Dünya mənə çoxdan soyuq,**
**Dünya məndən çoxdan doyub...**
**Ölümə bir şey qalmayıb -**
**Gecikib ölüm ağlayır.**

Və yaxud:

**Haqqın dərgahı, taxtı...**
**Halın halı var, vaxtı..**
**Qorxun ölüm idi - yoxdu**
**Mübarək, mübarək!**

Mən Şaiq Vəliylə çox həmsöhbət olmuşam. Xüsusilə Tahir bəyin redaktoru olduğu və bir zamanlar çox hayküylə oxucu auditoriyası qazanan "Proloq" qəzetinin yerləşdiyi otaqda... Həmin o söhbətlərin də mövzusu həyat, ədəbiyyat, insanlıq, cəmiyyət və bir də yaşadığımız, məhkum olduğumuz durum...

İndi bunları xatırladıqca istər-istəməz içimdə bir sızıltı baş qaldırır. O da Şaiq Vəlinin dünyadan vaxtsız köçünə səbəb olan həyat sıxıntıları idi. Həmin sıxıntılar şairin ürəyini içəridən sorğusuz-sualsız didib-parçalayır, onun ömrünə balta çalırdı. Amma buna baxmayaraq, Şaiq Vəli yazırdı:

**Boyumuz Tanrıya doğru**
**boylandı,**
**Gözümüz,**
**Könlümüz gözəlliyə sarı...**
**Hələ daha oxumamış**
**Tanrının böyüklüyünə**
**Şeirlər yazdıq,**
**mahnılar oxuduq**
**Aman, qara qaşlar,**
**Aman, qara gözlər, aman!**

Və şeirin sonunda vurğulayır:

**Alınmaz qapqara vətən torpağı,**
**Könlümüz göy üzü kimi...**
**Əyilə-əyilə ürəyimizin üstə**
**Bir ömür yol gəlirik**
**Üzü gözəlliyə sarı**
**Çiçəklər günəşə, yağışa**
**Kəpənəklər işığa sarı öldüyü kimi**
**Ölərik üzü gözəlliyə sarı -**
**Tanrının yaratdığı özündən gözəl...**

Şaiq Vəlinin "Eşq və şərab" kitabını oxuduqca dünyanın namərdliyini qınamaq, ona üsyan etmək istəyi də keçirdi ürəyimdən.

Amma Şaiqin şeirləri buna imkan vermirdi və poeziyanın dili ilə günahın dünyada yox, dünyanın başına kəndir salan, ona corab hörən namərd insanlarda olduğunu söyləyirdi mənə. Həmin o fikirlərin işığında bu misralar məni susmağa və onun ruhuna salavat çevirməyə çağırırdı.

**Əyrilək, itək əyrilikdən**
**Sıyrılaq, ötək sıyrılıqdan...**




**Ayrılaq, gedək ayrılıqdan,**
**Ölək, ölümdən gedək...**

Və yaxud:

**Qismətin yer üzündə əvvəl yaranıb,**
**Göz yaşın gözündən əvvəl yaranıb,**
**Başdaşın özündən əvvəl yaranıb,**
**Alın yazısı var, tale var, var..**

"Eşq və şərab" kitabını oxuyub başa çıxandan sonra onu bir kənara qoyub nəşriyyatın yeməkxanasına düşürəm.

Müştərilərə xidmət edən cavan oğlan mənə yaxınlaşır. Yüz qram sifariş verirəm... Gözlərimin qabağında ilahi bir eşq və onun ağrılarına dözüm kimi qəbul olunmuş şərab! Məncə, indiki məqamda, yəni sözün göylərə qaldırdığı yaşanmış bir eşqi yalnız şərabla bir balaca ovutmaq olar. Yalnız ovutmaq...

Hə, imkanınız olsa, bu kitabı siz də oxuyun. Onda özünüzün də, elə Şaiq Vəlinin də ruhu şad olacaq. Mən bunu özümdə hiss etdim.

***P.S. Şaiq Vəlinin vəfatından sonra bu kitabı araya-ərsəyə gətirən hər kəsə, xüsusilə naşir Umud Rəhimoğluna, redaktor İbrahim İlyaslıya və bütövlükdə "Avraasiya Press" nəşriyyatının əziyyəti olan əməkdaşlarına təşəkkür edirəm. Təbii ki, oxucu olaraq.***

***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ